# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №10 (80) • 12.03.2012


AzadliqRadiosu.az®


**Hüquq müdafiəçiləri İlham Əliyevə müraciət edib** səh.2

**Quba hadisələrinə görə neçə nəfər saxlanıb?** səh.3

**Lisey direktoru tələbə təqaüdlərini mənimsəmə ittihamı ilə tutulub** səh.5

**İctimai Palata aprelin 8-nə mitinq təyin etdi** səh.6

**Femen добрались до Стамбула** səh.7

**Alim Qasımovun səsində problem yaranıb** səh.13


## Maraqlı videolar

- "GEN" MMC-dən narazı sakinlərin piketini polis dağıtdı
- Əhmədlidə sürüşmə zonasında nələr baş verir
- Son 3 il ərzində ölkəyə 2879 cins mal-qara gətirilib

www.AzadliqRadiosu.az

# Tanınmış jurnalist şantaj edilir



səh.2

***Azad Avropa/ Azadlıq Radioları Korporasiyasının prezidenti Steven Korn bu hadisəni "mədəni cəmiyyət üçün yolverilməz olan iyrənc şantaj cəhdi" adlandırdı***

## M.Saakaşvilinin Azərbaycanı qarışdıran çıxışı

Martın 7-də Gürcüstan prezidenti Mixeil Saakaşvili Milli Məclisdə çıxış edib. Rusiyanın bölgədə apardığı işğalçılıq siyasətindən, Gürcüstanla Azərbaycanın tarixi bağlılığından danışan Saakaşvilinin çıxışından dərhal sonra Milli Məclisin deputatı Fəzail Ağamalı narazı qaldığını bildirib. O, hesab edir ki, Gürcüstan prezidenti bu çıxışı ilə deputatları təhqir edib.

səh.8

Avtoqraf




**Sahiblərinin sorağı Panamadan gələn olimpiya idman kompleksləri** səh.9-10

Əkrəm Əylisli: **«Əksər icra başçıları özlərini xan kimi aparırlar»** səh.4

**Самый официально богатый азербайджанец** səh.7

**Azərbaycan və Ermənistan ordularının daha bir müqayisəsi** səh.11

# Tanınmış jurnalist şantaj edilir


Xədicə İsmayılova

**Naməlum şəxslər AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılovanı şantaj etmək cəhdi göstərib. Martın 7-də jurnalistin ev ünvanına gələn poçtda onun susması tələb olunur, əks halda intim şəkillər yaymaqla onun rüsvay ediləcəyi yazılır.**

**XƏDİCƏ İSMAYILOVA FACEBOOK-DA YOLUNDAN DÖNMƏYƏCƏYİNİ DEYİR**

Hadisə ilə əlaqədar Xədicə İsmayılova Facebook şəbəkəsində müraciət yayaraq şantaj cəhdinin özünün jurnalist fəaliyyəti ilə bağlı olduğunu yazır. O xatırladır ki, son vaxtlar dövlət rəhbərlərinin gizli bizneslərini üzə çıxarıb, İlham Əliyeviin ailə üzvlərinin ofşor şirkətləri haqda araşdırmalar aparıb.

Xədicə İsmayılova əlavə edir ki, hazırda da hakim ailənin gizli iqtisadi maraqlarını üzə çıxarmaq üçün yeni araşdırmalar aparır və dövlət orqanlarına sorğular göndərir. Odur ki, Azərbaycanda indiyə qədər söz azadlığına qarşı qeydə alınan təzyiqləri nəzərə alaraq martın 7-də baş verən xoşagəlməz hadisəni sürpriz saymır.

Heç bir təzyiq qarşısında fəaliyyətini dəyişməyəcəyini bəyan edən X.İsmayılova Azərbaycanın siyasi hakimiyyətini çağırır ki, öz məsuliyyətlərini dərk edib müvafiq tədbir görsün.

**AZAD AVROPA/ AZADLIQ RADİOLARI KORPORASİYASI HADİSƏNİ PİSLƏYİR**

Azad Avropa/ Azadlıq Radioları Korporasiyası bəyanat yayaraq Xədicə İsmayılovaya qarşı təzyiqləri kəskin pisləyib. Korporasiyanın prezidenti Steven Korn bu insidenti "mədəni cəmiyyət üçün yolverilməz olan iyrənc şantaj cəhdi" adlandıraraq bildirib: "Biz Xədicə ilə fəxr edir, onu və onun fəaliyyətini tam dəstəkləyirik" .

S.Korn Xədicə ilə şəxsən görüşmək niyyətində olduğunu da bildirib.


Steven Korn

**«JURNALİSTƏ HƏDƏLƏR ARAŞDIRILMALIDIR»**

Jurnalistləri Müdafiə Komitəsi (JMK) korrupsiya, o cümlədən prezident İlham Əliyevin ofşor biznesi haqda araşdırmalar aparan jurnalist Xədicə İsmayılovaya qarşı hədələri pisləyir. «Biz həmkarımız Xədicə İsmayılovanı susdurmaq üçün intim taktikasından istifadə edilməsini eşidib dəhşətə gəldik. Biz Azərbaycan hakimiyyətini onun təhlükəsizliyinə zəmanət verməyə və cinayətkarları ədalət mühakiməsinə gətirməyə çağırırıq. X.İsmayılova Azərbaycanın ən cəsarətli və azad jurnalistlərindən biridir. Onu ləkələmək istəyənlər onsuz da məğlub olublar», - deyə JMK-nın Avropa və Mərkəzi Asiya proqramlarının koordinatoru Nina Ognianova bildirib.

**ABŞ YAYIM ŞURASINDA MÜZAKİRƏ**

Martın 8-də ABŞ Yayım Şurasında AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılovaya qarşı təhdidlər də müzakirə edilib. Şura üzvləri qeyd ediblər ki, araşdırmaçı jurnalist kimi tanınan Xədicə İsmayılova Azərbaycanda şantajla üzləşib. Onlar jurnalistin müdafiəsinin zəruri olduğunu qeyd ediblər.

Şuranın toplantısında bu qurumun çətiri altında fəaliyyət göstərən Yaxın Şərq Yayım Şəbəkəsi, Amerikanın Səsi radiolarının əməkdaşlarına qarşı təzyiqləri, bəzi qaynar nöqtələrdə onların qətlə yetirilmələri müzakirə edilib.

# Hüquq müdafiəçiləri İlham Əliyevə müraciət edib


Novella Cəfəroğlu

**Bir həftə əvvəl hüquq müdafiəçiləri prezidentə Novruz bayramı öncəsi əfv üçün müraciət ünvanlayıblar. Martın 9-da bir qrup müdafiəçi Prezident Administrasiyasında bu məsələnin müzakirəsinə qatılacaqlar. Bu barədə AzadlıqRadiosuna hüquq müdafiəçisi Novella Cəfəroğlu məlumat verib.**

O deyib ki, əfvlə bağlı yeni siyahı hazırlanıb və Əfv Komissiyasına təqdim edilib: «Siyahıda 2 aprel mitinqində tutulanların, o cümlədən Bəxtiyar Hacıyev, Ruslan Bəşirli, Əli İnsanov, Fərhad Əliyevin də adları var».

**"Qaynar Xətt"** dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. **Telefon 436 77 41.** Bizə zəng edənlər mütləq koordinatlarını (ad, familiyasını və telefonunu) saxlamalıdır. **AzadliqRadiosu.az** saytına daxil olmaqla da verilişlə əlaqə saxlaya bilərsiniz.

***Aparıcı Esmira Cavadova.***

**E-mail:** esmer_alda@mail.ru



# Quba hadisələrinə görə neçə nəfər saxlanıb?



Qubada 1 mart aksiyası

**Quba hadisələrinə görə saxlananların sayı ilə bağlı ziddiyyətli məlumatlar yayılmaqdadır. Rəsmi qurumlar saxlananların sayı barədə dəqiq rəqəm açıqlamırlar. Hələ ki, indiyə qədər apardığımız araşdırmalar nəticəsində 3 nəfər barəsində dəqiq məlumat əldə edə bilmişik. Onlar Quba rayon sakinləri Alxas Dənyalov, Samir Xammədov və Fərhad Abdulrəhmanovdur. Bu gənclərin bir neçə gün əvvəl Qubadan Bakıya gətirildiyi bildirilir.**

**YALNIZ 3 NƏFƏRİN ADI MƏLUMDUR**

Hər 3 şəxs Cinayət Məcəlləsinin özgə əmlakını qəsdən məhvetmə, zədələmə və ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkiletmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmədə ittiham olunurlar. Vəkillərindən aldığımız məlumatlara görə, onların müdafiə etdikləri şəxslər Daxili İşlər Nazirliyinin (DİN) Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsində saxlanılır. Amma DİN bu barədə hər hansı məlumat verməkdən imtina edir. Nazirlikdə hesab edirlər ki, bu hadisələrlə bağlı istintaq getdiyindən hər hansı məlumatın verilməsi istintaqın işinə mane ola bilər.

Qubadakı jurnalistlərdən və digər mənbələrdən aldığımız məlumatlarda saxlananların 15 nəfərə yaxın olduğu bildirilir. Amma bu məlumatlar hələ ki, rəsmi təsdiqini tapmayıb. Qubadan aldığımız məlumatlara görə, saxlananların çox olmasını hər gün rayon prokurorluğu qarşısına yığılan adamların sayı da təsdiq edir.

Qubadan seçilən deputat Yevda Abramov isə həbs olunanların daha çox olması barədə yayılan məlumatları şayiə hesab edir. Deyir ki, 1 mart hadisələrinə görə saxlananlar 3 nəfərdən artıq deyil: «Mən 3 nəfərdən artıq adam haqqında heç bir şey eşitməmişəm, bilmirəm».

**«TUTULANLARIN SAYININ AÇIQLANMAMASI ADAMLARI GƏRGİNLİK VƏ QORXUDA SAXLAMAQ ÜÇÜNDÜR»**

Qubaya səfərə hazırlaşan hüquq müdafiəçisi, Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin sədri Arzu Abdullayeva deyir ki, onlarda 1 mart hadisələrinə görə saxlanan 5 nəfərin adı məlumdur. Onun sözlərinə görə, mətbuatda adları gedən 3 nəfərdən başqa martın 5-də Xəyyam Yunusov, martın 9-da isə Murad Zakirov saxlanılır. Arzu Abdullayeva bildirir ki, bundan başqa digər saxlanılanların kimliyini hələ ki, dəqiqləşdirə bilməyiblər. Hüquq müdafiəçisi deyir ki, ola bilər bu hadisələrdə hansısa maraqlı qüvvələr var ki, onlar cəmiyyəti belə qeyri-müəyyənlikdə saxlamaq istəyirlər: «Bir tərəfdən nigarançılıq, digər tərəfdən xof, gərginlik ola bilsin ki, kiminsə marağındadır. Həmin qüvvələr belə bir vəziyyəti saxlamaqda maraqlıdırlar».



Arzu Abdullayeva

**ADAMLARA MƏTBUATA İNFORMASİYA VERMƏMƏYƏ DAİR XƏBƏRDARLIQ OLUNUR?**

Arzu Abdullayeva bundan başqa 1 mart hadisələrinə görə rayon sakinlərinə müxtəlif formada təzyiqlərin edildiyini də deyir. O deyir ki, hətta Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin Quba rayonu üzrə nümayəndəsini də polisə aparıb ona xəbərdarlıq ediblər. Ötən bir-neçə gün ərzində 2 nəfər rayon icra hakimiyyətinə çağırılıb. Onlara rayonda baş verən hadisələrlə bağlı mətbuata məlumat yaymamağa dair xəbərdarlıq edilib.

***Maarif Çingizoğlu***

## AzadliqRadiosu.az saytında maraqlı videolar

- **«Eurovision 2012»yə gedəcəksiz?**
- **Rusiya «Eurovision»a nənələri göndərir**
- **"GEN" MMC-dən narazı sakinlərin piketini polis dağıtdı**
- **Əhmədlidə sürüşmə zonasında nələr baş verir**
- **Son 3 il ərzində ölkəyə 2879 cins mal-qara gətirilib**
- **İrana getmək istəyənlər çoxaldı, bu mənzərə yarandı**
- **Azərbaycan qadınlar günü: 8 mart, yoxsa başqa gün?**
- **Qadınlara portret hədiyyəsi**

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**İsrail Qəzzəni bombalayıb, ölənlər var**




**Yeniyetmələrin çoxu miqrasiya etmək istəyir**



**Azərbaycanın yeni neft rekordları**

# Əkrəm Əylisli: «Əksər icra başçıları özlərini xan kimi aparırlar»


Əkrəm Əylisli

**Martın 1-də Qubada baş verən kütləvi etiraz aksiyasının nəticələri və fəsadları hələ də medianın diqqət mərkəzində qalır. Bəs Azərbaycan ziyalısı bu barədə nə düşünür? Xalq yazıçısı Əkrəm Əylisli ilə bu barədə söhbəti təqdim edirik.**

*- Əkrəm müəllim, Quba hadisələrinə münasibətinizi bilmək istərdik.*

- Mən bir ziyalı və vətəndaş mövqeyim olaraq deyirəm ki, Quba hadisələri çox qəliz məsələdir. Açığını deyim ki, mən bu «ərəb baharı», filana sevinən deyiləm. Çünki gözümün qarşısında ərəb dünyasını darmadağın etdilər. Ərəb dünyası özünə gələnəcən bəlkə əlli il vaxt keçməlidir.

**QUBA HADİSƏLƏRİ = ƏRƏB BAHARI?**

*– Quba hadisələrini «ərəb baharı»na oxşatmaq olar, deyirsiz?*

– Yox. Quba hadisələrinin içini bilmirəm düzü. Amma o mafioz qruplaşmaların bir-birinə qarşı qurduğu oyun da ola bilər. Amma fakt budur ki, bu hadisə hakimiyyətə ciddi siqnal olmalıdır. Faktiki olaraq camaat küçələrə tökülüşdü və kortəbii bir vəziyyət yarandı. O kortəbii vəziyyət bir az da güclənəndə qarşısını almaq çox çətin olur.

*– Hadisələrin kökündə sosial problemlər də var, ya ancaq dediyiniz mafioz qruplardır?*

– Bu yalnız Quba deyil. Mən hamısını ümumiləşdirmək istəmirəm, amma bu faktdır ki, Azərbaycanın əksər rayonlarında icra başçıları özlərini xan kimi aparırlar. Camaata yuxarıdan aşağı baxırlar. Xalqı məcbur edirlər ki, bunların özlərinə və ümumiyyətlə, hakimiyyətə nifrət etsin. O yerə gətirib çıxardırlar milləti. O icra başçılarından bəzilərini tanıyıram. Necə deyərlər, onları «iki eşşəyin arpasını bölməyə» də layiq bilmirəm. Amma gəlib oturublar də orada.

**KADR MƏSƏLƏSİNDƏ HƏSSASLIQ OLMALIDIR**

*– Sizcə, Qubadakı kimi etiraz aksiyalarını da adi siyasi mitinqlər kimi yatırtmaq asandır?*

– Deyim ki, indi hakimiyyət güclüdür. Buna söz ola bilməz. Bu hakimiyyətin imkanı var ki, hər cürə üsyanı yatırtsın. Amma bu üsyanın bu gün birini yatırdarsan, sabah başqası ola bilər.

*– Onda bəs necə etməli?*

– Məsələləri koordinal şəklidə həll etmək lazımdır. Çalışmaq lazımdır ki, sosial ədalətsizlik nisbətən aradan götürülsün. Məsələ ondadır ki, Azərbaycan kapitalizmi çox qudurmuş kapitalizmdir. Men xeyli kapitalist ölkəsində olmuşam. Avropada, götürək elə Norveçi. Orada kapitalistlərin böyük sərvəti var. Amma adi insanların da hər şeyi var. Və heç kim digərinə yuxarıdan aşağı baxmır. Biz çalışmalıyıq ki, ölkəmiz yavaş-yavaş o istiqamətə getsin. Amma quduran qudurmağında, əzilən əzilməyində, bu gedişlə, əlbəttə ki, ölkə çox pis vəziyyətə düşə bilər. Ona görə də məncə, dövlətin idarəedici orqanları kadr məsələlərinə həssaslığı artırmalıdır. İndi o həssaslıq yoxdur. Özüm görməmişəm, babalı deyənlərin boynuna. Pul verib gedirlər vəzifəyə, oturub başlayırlar pul yığmağa, bütün zülm də camaatın üzərinə düşür.

**«XALQIN QƏZƏBİ VULKAN KİMİDİR»**

*– Sizcə, Qubadan gələn siqnal Bakıda ciddi qəbul olunacaq?*

– Mənə elə gəlir ki, artıq ciddi qəbul olunub. Yəni hakimiyyətdə oturanlar gözlərini yummayıblar. Mən bu işin içini bilmirəm. Yəqin ki, onlar bu işin içini də yaxşı bilirlər. Amma bu üsyana nə bais olsa belə, hər halda bu adamlar yəqin ki, bunu görüblər, hiss ediblər və onlardan tələb edilən budur ki, həssas yanaşsınlar buna. Yəni bunu qulaqardına verməsinlər.

*– Əkrəm müəllim, qulaqardına versələr, nə olar sizcə?*

– Onda gələcəkdə bu hadisələr bir az da geniş miqyas alar. İnsanda dözümün həddi olur. O hədd qurtaranda ola bilsin ki, daha gözlənilməz, daha qorxulu və acınacaqlı hadisələr baş verə bilər. Xalqın qəzəbi təbii fəlakət kimi olur. Vulkan kimi. İçəridə yığıb püskürəndən sonra qarşısını almaq olmur, yandırır hər yeri.

# AzadlıqRadiosunu Androiddə dinləmək olar




*Əvvəllər AzadlıqRadiosunu canlı olaraq mobil telefonlarda necə dinləmək barədə məlumat vermişdik. Bildiririk ki, indi xüsusi mobil App əlavəsini yükləməklə AzadlıqRadiosunu Android əməliyyat sistemi ilə işləyən mobil telefonlarda da izləmək olur.*

Əlavəni yükləməklə mobil telefonunda nələr əldə edirsən:

- Gündə 24 saat və həftənin 7 günü Radionu canlı, ya da arxivdən dinləmək və yazıları oxumaq;
- Səhifəyə internetdə olmadan - offline rejimdə baxmaq üçün yazıları, videoları və ya audionu yükləmək;
- Audioları birbaşa arxivdən dinləmək (podcast);
- AzadlıqRadiosunun yayım cədvəlinə baxıb, növbəti proqramlar haqda əvvəlcədən xəbər tutmaq;
- Səsləri audio arxivdə axtarmaq;
- Təcili xəbərin, foto və ya videon varsa bu əlavəmizdən istifadə etməklə paylaşmaq;
- Xəbərlərini, video və fotolarını e-mail, Twitter və Facebook vasitəsilə paylaşmaq.

**Əlavəni http://www.azadliq.org/info/mobile_new/2178.html internet ünvanından telefona yükləmək olar.**

# Gürcüstan və Ermənistan Azərbaycanı geridə qoydu




**Son 1 ildə Azərbaycanda biznes mühiti ümumilikdə bir qədər yaxşılaşıb. Bunu özünün son hesabatında Dünya Bankı bildirir. "Doing business" göstəricisinə görə, Azərbaycan dünya ölkələrinin reytinqində ötən illə müqayisədə 3 pillə irəliləyib. 69-cu yerdən 66-cı yerə qalxıb. Hesabat dünyanın 183 ölkəsini əhatə edir. Hesabata görə, Azərbaycan bu məsələdə hətta Türkiyəni də, Avropa Birliyinin üzvü olan Rumıniyanı da, qonşu Rusiyanı da qabaqlayır. Reytinq cədvəlində Türkiyə 71-ci, Rumıniya 72-ci, Rusiya isə 120-cidir.**

Hesabata görə, Azərbaycanda biznesin açılması asandır. Azərbaycan bu göstəriciyə görə 183 ölkə arasında 18-cidir. Şirkət açmaq üçün 6 prosedurdan keçmək tələb olunur və bu, 8 gün çəkə bilər. Sərmayəçilərin müdafiəsi göstəricisi də yetərincə yüksək sayıla bilər – 24-cü yer. Hesabata görə, kredit almaq da elə də çətin sayılmır – Azərbaycan bu məsələdə 183 ölkə arasında 48-cidir.

Amma Azərbaycanda sərhəddən mal keçirməklə alver etmək müşkül işdir. Bu baxımdan Azərbaycan dünyada ən problemli yerlərdən biridir. 183 ölkə arasında 170-cidir. Tikintiyə icazə alınması ilə bağlı vəziyyət ondan da bərbaddır – 172-ci yer. Bunun üçün prosedurların sayı 30-dur, prosesin özü isə 7 aydan çox çəkə bilər.

Hesabatda deyilir ki, tikinti sahəsinin tənzimlənməsi ictimai təhlükəsizlik üçün vacibdir. Bundan başqa, tikinti hər bir ölkənin iqtisadiyyatında mühüm rol oynadığı üçün həmin sahədə aşırı gərginliyin yaranması da yaxşı hal deyil.

Tikinti icazəsinin alınması çox çətin və bahalı prosedur olanda isə bir çox şirkətlər bundan vaz keçir:


Rövşən Ağayev

"Yaxud da onlar rüşvət verə, ya da qanunsuz tikintiyə başlaya bilərlər. Bu isə təhlükəli tikintilərə yol açmaqla ictimai təhlükəsizliyi risk altında qoya bilər".

Azərbaycanda biznes sahəsində ən pis göstərici isə elektrik təminatı, işıq çəkdirilməsi ilə bağlıdır – 173-cü yer. Bu prosedurlar 8 ay vaxt apara bilər.

Amma ümumlikdə Azərbaycanın "Doing business" hesabatındakı yerini, son illərdə reytinqdə irəliləməsini yerli rəsmilər yüksək qiymətləndirir və bunu ölkədə aparılan iqtisadi islahatların bəhrə verməsi kimi təqdim edirlər.

İqtisadi Təşəbbüslərə Yardım Mərkəzindən Rövşən Ağayev bildirir ki, Dünya Bankının hesabatının hazırlanması prinsiplərini qənaətbəxş saymır.

Onun fikrincə, biznes mühitinə qiymət vermək üçün daha geniş spektrdə məsələlər nəzərə alınmalıdır:"Düzdür, hökumət deyir ki, biznes açmaq üçün "Vahid pəncərə" sistemi tətbiq edib, qeydiyyat asanlaşıb. Amma sahibkarların problemləri o vahid pəncərədən çox uzaqlaşmamış başlayır. Bizim təşkilat indi biznesin müxtəli sahələri, o cümlədən zeytun, balıq istehsalı ilə bağlı tədqiqatlar aparır. Elə faktlarla qarşılaşırıq ki, biznesin açılması ilə bağlı prosedurların sadəliyi əhəmiyyətini itirir. Kimsə şirkəti üçün torpaq almaq istəyirsə, maneələrlə üzləşir, torpağı ala bilirsə, orada müəssisə tikmək müşkülə çevrilir..."

R.Ağayev deyir ki, ölkədə istər kreditlərə əlçatanlıq, istərsə də kredit faizlərinin sahibkarlara nə dərəcədə sərf etməsi baxımından problemlər var. Böyük oliqarx qrupları ilə bağlı olmayan sahibkarların sərfəli kredit alması praktiki olaraq mümkün deyil.

Dünya Bankının "Doing business" hesabatında istər Ermənistan, istərsə də Gürcüstan Azərbaycandan irəlidədir. Ermənistan 55-ci, Gürcüstan isə 16-cıdır.

***Rövşən Qənbərov***

# Lisey direktoru tələbə təqaüdlərini mənimsəmə ittihamı ilə tutulub

*Respublika Prokurorluğunun yaydığı rəsmi məlumata görə, Biləsuvar Peşə Liseyində dövlətin tələbələrə verdiyi təqaüdləri direktorun mənimsədiyini aşkar edib. Prokurorluq bildirir ki, Biləsuvar rayon sakininin şikayətini araşdırarkən müəyyən edilib ki, liseyin direktoru Teymur Poladov vəzifə səlahiyyətlərindən sui-istifadə edərək 2010-cu ilin sentyabrında liseydə təhsil alan 335 tələbəyə hər ay dövlətin verdiyi təqaüdləri mənimsəyib: "Peşə liseyinin inzibati binasında həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Teymur Poladovun gödəkçəsinin cibindən tələbələrə məxsus 10 ədəd "Viza elektron" plastik kartı və cinayət təqibi üçün mühüm əhəmiyyət kəsb edən bir sıra sənədlər aşkar edilərək götürülüb. Bundan başqa, Teymur Poladovun qardaşı Seymur Poladovun Bakı şəhərində yaşadığı mənzilindən liseyin tələbələrinə məxsus 325 ədəd "Viza elektron" plastik kartlar aşkar edilib".*

Rəsmi məlumatda deyilir ki, Teymur Poladov haqqında Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) maddələri ilə cinayət işi başlanıb və həbs edilib. Ittihamlar sübut olunsa, Teymur Poladov 12 ilə qədər azadlıqdan məhrumetmə cəzası ala bilər.


Arxiv foto

# İctimai Palata aprelin 8-nə mitinq təyin etdi

**Martın 10-da Müsavat Partiyasının qərargahında İctimai Palatanın sessiyası keçirilib. Sessiyada etiraz aksiyalarının keçirilməsi məsələsi də müzakirə olunub. İctimai Palata qərara alıb ki, aprelin 8-də mitinq keçirilsin, amma harada keçiriləcəyi barədə bir söz deyilməyib. Mitinqin yeri barədə qərarı İP Koordinasiya Şurası verəcək.**

**KİM NƏ DEDİ**

*İP üzvü Pənah Hüseyn:* «Biz Azərbaycanda başlayan demokratik inqilabın içindəyik. Onu qələbə ilə başa çatdıracağıq. Hakimiyyətə gəlib neft pullarını xalqla bölüşəcəyik. Xalqın banklara olan borclarını siləcəyik. Xalqın əlindən alınmış torpağı, suyu, meşəni xalqa qaytaracağıq...».

*«Azadlıq» qəzetinin redaktor əvəzi Rahim Hacılı dünyanın gözünün Azərbaycanda olduğunu bildirib:* «Quba hadisələri göstərdi ki, ölkədə yeni bir situasiya yetişib. Biz bu situasiyada müstəsna rol oynaya bilərik...».

*Sessiyada çıxış edən «Nida» Vətəndaş Hərəkatının üzvü İlkin Qəmbər martın 17-də icazəli mitinq üçün meriyaya müraciət etdiklərini deyib:* «Gənclər çalışacaqlar ki, razılaşdırılmış mitinq keçirsinlər. Amma bu olmasa, şəhərdə, mərkəzi yerlərdən birində icazəsiz aksiya keçirəcəyik...».

*AXCP sədri Əli Kərimli* isə İP-nin Azərbaycanın bütün bölgələrində fəaliyyətinin gücləndirilməsinin vacib olduğunu deyib. O bildirib ki, müxalifət güclü olduğu halda Azərbaycan hakimiyyətini ölkədə islahatlar aparmağa məcbur edə bilər.

**İCTİMAİ PALATA BƏYANAT YAYIB**

İctimai Palata siyasi məhbusların azad olunmasını və repressiv idarəetməyə son qoyulmasını tələb edir. İP-nin martın 10-da yaydığı bəyanatda deyilir ki, hökumət insan hüquqlarına, vicdan azadlığına, beynəlxalq demokratiya hərəkatının çağırışlarına hörmət etsin,


Arxiv foto

vicdan məhbuslarını, siyasi məhbusları azad etsin. «Vətəndaşı saymayan, korrupsiyaya uğramış, insan haqlarını, mülkiyyət hüquqlarını ayaqlar altına salan sülalə rejimi, nəhayət, anlamalıdır ki, İctimai Palata vicdan məhbuslarının yalnız cismani deyil, eyni zamanda mənəvi azadlığı uğrunda mübarizə aparır və mübarizəsində davamlıdır» - deyə bəyanatda bildirilir.

İctimai Palata bəyan edir ki, demokratiya və islahat çağırışları heç bir kampaniya və ya «Eurovision» tədbirləri ilə bağlı deyil.

***Maarif Çingizoğlu***

# Ombudsman hesabatına iradlar


Elmira Süleymanova

**Martın 7-də Azərbaycanın İnsan Hüquqları Müvəkkili - Ombudsman Elmira Süleymanova parlamentə təqdim etdiyi illik hesabatda quruma edilən şikayətlərdən, bu şikayətlərə necə baxılmasından, bəzi hallarda pozulmuş hüquqların bərpa edilməsindən bəhs olunurdu. Hesabatda bir sıra təkliflər də öz əksini tapmışdı.**

**KORRUPSİYA VƏ RÜŞVƏTLƏ BAĞLI MÜRACİƏTLƏR ARTIB**

Ombudsmanın hesabatında qeyd olunur ki, 2011-ci ildə vətəndaşların korrupsiya və rüşvətlə bağlı müraciətləri artıb: «Ombudsmanın ünvanına korrupsiyaya yol verilməsi və rüşvət tələb etmə halları ilə bağlı 797 şikayət daxil olub. Bu da 2010-cu illə müqayisədə 30,6 faiz çoxdur. Şikayətlərdə vəzifəli şəxslərin qanunsuz hərəkətləri və müxtəlif pozuntulara yol verilməsi ilə bağlı məlumatlar, qanunçuluğu, hüquq qaydalarını, vətəndaşların hüquq və qanuni maraqlarını təmin etməyə məsul olan bəzi dövlət orqanlarının və təşkilatların fəaliyyətindən narazılıqlar əksini tapıb».

Ombudsman aparılan təhlillərə istinadən deyib ki, ümumiyyətlə, insan hüquqlarının pozulmasında günahkar olan və cəzalandırılan əməkdaşlarla yanaşı, tabelikdə olan rəhbərlərin də cəzalandırılması və bu barədə ictimaiyyətin məlumatlandırılması zəruridir.


İqbal Ağazadə

*Milli Məclisin İnsan Hüquqları Komitəsinin üzvü, deputat İqbal Ağazadə* nəinki bu hesabatla razılaşmır, deyir ki, Azərbaycanda müstəqil Ombudsman institutu yoxdur. İcra strukturlarından asılı bir Ombudsman Aparatı var. Onun da nə araşdırmalarının, nə təhlillərinin, nə də hesabatının heç bir nəticəsi ola bilməz. Çünki bu qurum demək olar ki, heç nə ilə məşğul olmur:

**«OMBUDSMANIN HANSI FƏALİYYƏTİNDƏN DANIŞMAQ OLAR?»**

«Əgər Avropa Məhkəməsinə gedən bu qədər işlər və vətəndaşların qalib gəldiyi məhkəmə halları varsa, bunlar Ombudsmanın hesabatında öz əksini tapmırsa, bu qədər insanın mülkiyyət hüququ tapdandığı halda hesabatda yalnız hakimiyyətə aid olmayan MMC-lərin, MTK-ların adları çəkilirsə, «Qış bulvarı» və digər söküntülərlə bağlı narazılıqlar heç bir hesabatda yer almırsa, mülkiyyət hüququnun pozuntusu kimi dəyərləndirilmirsə, 2 aprel aksiyasından sonra dünyanın bütün beynəlxalq qurumlarının vicdan məhbusu kimi tanıdığı 16 aksiyaçı və Bəxtiyar Hacıyevin məsələsi öz əksini tapmırsa, o Ombudsmanın hansı fəaliyyətindən danışmaq olar? Bu fəaliyyət nəyə və necə söykənir?»

***İlqar Rəsul***

# Так кому же верить?



**В заявлениях азербайджанских министров порой проскальзывают мысли, которые ставят под вопрос наличие у нынешнего истеблишмента четкой программы развития страны на ближайшие годы. Более того, существования единых взглядов в правительстве...**

К примеру, на днях в ходе заседания Каспийско-Европейского интеграционного делового клуба (CEIBC) министр промышленности и энергетики Азербайджана Натиг Алиев сообщил, что «хотя у нас в стране наряду с этим развивается ненефтяная сфера, я считаю, что ещё до середины XXI века альтернативы нефтяному сектору в экономике Азербайджана не будет».

И это при том, что президент Ильхам Алиев в свою очередь регулярно заявляет иное! А именно – что Азербайджан уже перешагнул стадию развивающегося государства, почти освободился от зависимости от нефтяного фактора и внедряет полномасштабное развитие ненефтяной экономики. Наконец, совершенно иную точку зрения выдвигают в Кабинете министров полагая, что при среднем росте на 10% в год уже в первой четверти века ненефтяной сектор достигнет/превысит роль нефтяного сектора в экономике страны. Так кому же верить?

**ДОХОДЫ И НАЛОГИ**

Сегодня азербайджанская экономика полностью находится в зависимости от нефтяной индустрии. Той самой индустрии, благодаря денежным поступлениям от которой в Государственный нефтяной фонд страны в бюджет в нынешнем 2012 году будет переведено почти 10 млрд манатов. И это при том, что сам бюджет государства составляет всего 16,5 млрд манатов!

Здесь разумно было бы предположить, что как раз оставшиеся 6,5 млрд манатов приходятся на долю ненефтяной экономики. То есть, еще немного поднапрячься и страна полностью выравняет дисбаланс между нефтянкой и ненефтяной экономикой. Но не тут-то было! Разве можем мы забывать о том, что одним из основных налогоплательщиков, то есть формирующих бюджет страны юридических лиц, является Государственная нефтяная компания? Доходы от нефти – это одно, а налоги – совершенно другое!..

**ГОСУДАРСТВЕННЫЙ И ЧАСТНЫЙ ЭКСПОРТ**

Вот почему, когда некоторые независимые эксперты приводят свои расчеты, доказывающие, что азербайджанский бюджет на 80% с лишним зависит от нефтяной индустрии, в правительстве пытаются просто не слышать... Ведь это совершенно не сочетается с тем, что говорит сам президент о минимизации зависимости страны от «нефтяной иглы».

Кстати, это именно то, чего Азербайджан «достиг» за 20 лет своей независимости. Нам удалось сделать так, что доля государственного сектора в экспортных операциях составляла по итогам января 2012 года 94,9%!

То же самое можем сказать иначе: за 20 лет независимости правительству удалось создать такую успешную когорту предпринимателей, которые вывозят на мировые рынки конкурентоспособные товары и продукцию лишь в объеме 5,1% всего экспорта страны...

**5 000 ПРЕДПРИЯТИЙ. НЕПОНЯТНЫХ...**

В завершении хотелось бы спросить: чем именно занимаются люди на тех самых свыше 5 000 предприятий в ненефтяной сфере экономики? Тех самых, которые были открыты в Азербайджане только в 2011 году в результате целенаправленной политики правительства?

***Джавидан Тебризли***

# Самый официально богатый азербайджанец

**Третий раз подряд список богатых Forbes возглавляет владелец телекоммуникационных компаний мексиканец Карлос Слим с 69 миллиардами долларов. Билл Гейтс, основатель "Майкрософта" и легендарный инвестор Уоррен Баффет вошли в первую тройку самых богатых.**

Среди азербайджанцев - Мубариз Гурбаноглу(Мансимов), являющийся гражданином Турции указан на 1153 месте с 1 миллиардом долларов.

Этот список Forbes – юбилейный. Двадцать пять лет назад журнал первым решил сыграть на традиционном интересе масс к чужим деньгам и совершил то, что считалось у американцев неприличным.




# Femen добрались до Стамбула

*В Стамбуле задержаны активистки украинского женского движения Femen. Четыре женщины были задержаны в центре Стамбула во время массовой акции в знак протеста против развития секс-туризма в Турции.*

Женщины вышли полуобнаженными в стамбульском районе Таксим с плакатами «Украина – не бордель». По информации турецких СМИ, украинские «феминистки» прибыли в Стамбул по приглашению фирмы, производящей нижнее белье.

Активистки движения потребовали от правительства Турции пресечь развитие проституции и секс-туров на Украину, куда отправляются в поисках удовольствий турецкие мужчины.

***Елена Солнцева***

# M.Saakaşvilinin Azərbaycanı qarışdıran çıxışı

## Gürcüstan prezidenti: «Bir kərə yüksələn bayraq, bir daha enməz!»


M.Saakaşvili Azərbaycan parlamentində çıxış edərkən

**Martın 7-də Gürcüstan prezidenti Mixeil Saakaşvili Milli Məclisdə çıxış edib. Rusiyanın bölgədə apardığı işğalçılıq siyasətindən, Gürcüstanla Azərbaycanın tarixi bağlılığından danışan Saakaşvili bildirib ki, bu iki respublika Qərbə istiqamətlənən iki doğma bacı kimi olublar. 1920-ci ildə Azərbaycan süqut edəndən sonra Gürcüstan 1 ildən artıq davam gətirə bilməyib. Amma ən dəhşətli repressiyalar belə bu iki xalqın azadlıq istəyini öldürə bilməyib. Saakaşvili əlavə edib:**

### «RƏSULZADƏNİN ARZUSU ÖLMƏDİ»

Gürcüstan prezidentinin Milli Məclisdə çıxışından:

«Məmməd Əmin Rəsulzadənin dediyi kimi: «Bir kərə yüksələn bayraq bir daha enməz!». Gürcülər, azərbaycanlılar və bir neçə Şimali Qafqaz xalqları öz güclərini Fransada birləşdirib bu işi davam etdirdilər. Mən Rəsulzadənin Stalinə yazdığı məktubdan sitat gətirməyə bilmirəm.

Məktubda deyilir ki, «indi Rusiyada baş verənlər 100 il bundan əvvəl baş verənlərdən fərqlənmir. Rusiya özünə yeni müstəmləkələr birləşdirir. Kommunist partiyaları imperiyanı yenidən dirçəltməyə qərar veriblər».

Gürcüstan prezidenti deyib ki, Rəsulzadənin arzusu ölmədi. SSRİ nə xaricdən işğal edildi, nə də dağıdıldı. SSRİ içindən dağıldı. Azərbaycan və Gürcüstan heç vaxt olmadığı kimi, azad və güclü oldular. İndi Gürcüstan və Azərbaycan dağıdılması mümkün olmayan ölkələrə çevrilib.

Mixeil Saakaşvili əlavə edir ki, «Biz 2012-ci ildəyik və anlamalıyıq ki, indi Sovet İttifaqının meyitini diriltmək cəhdi məhvə məhkumdur». Gürcüstan prezidenti deyir ki, son vaxtlar Moskvadakı nostalgiya əhvallı qüvvələr Avroasiya birliyi yaratmaq ideyası ilə çıxış edirlər. Amma aldanmaq olmaz. Adlar dəyişsə də məzmun eynidir.

### «RUSİYA İLƏ DÜŞMƏNÇİLİKDƏN UZAĞIQ»

«Bu layihənin çox adı olub. Adlar çox ola bilər. Amma mahiyyət birdir-bizim azadlığımıza, Rəsulzadənin arzusuna son qoymaq. Bu layihə uğur qazana bilməz. Hətta Rusiya liderləri də bunu anlamalıdırlar. Qeyri- sabit vassallardansa güclü qonşuları olmaq daha yaxşıdır. Məyus və qisas almaq həvəsi ilə yaşayan insanlardansa xoşbəxt qonşuların əhatəsində olmaq daha yaxşıdır».

Saakaşvili deyir ki, o, Rusiya ilə düşmənçilikdən uzaqdır. Amma ətrafdakıları hədələməyən, böyüklük illüziyaları ilə yaşamayan bir Rusiya arzusundadır. Prezident deyir ki, onların Rusiya ilə ümumi keçmişi mövcuddur. Gələcək də birlikdə qurulmalıdır. Və bu gələcək Avropa Birliyi, eləcə də NATO-ilə ittifaqdadır. Gürcüstan rusları turist, qonaq kimi qəbul etməyə hazırdır. Ancaq işğalçı kimi yox.


Fəzail Ağamalı

### "SAAKAŞVİLİ BİZİ TƏHQİR ETDİ"

Milli Məclisin deputatı Fəzail Ağamalı isə günün ikinci yarısı parlamentdə çıxışı zamanı Mixeil Saakaşvilinin çıxışından narazı qaldığını bildirib. O, hesab edir ki, Gürcüstan prezidenti bu çıxışı ilə deputatları təhqir edib: «Şükürlər olsun ki, heç olmasa Rəsulzadədən danışdı. Ancaq Gürcüstan ərazisinin işğala məruz qaldığından danışan Saakaşvili bir dəfə də olsun Azərbaycanın Ermənistan tərəfindən işğala məruz qalmasından danışmadı. Heydər Əliyev zamanında, eləcə də İlham Əliyevin prezidentlik dönəmində Azərbaycanın Gürcüstan dövlətinə vermiş olduğu töhfələrdən danışmalı idi. Bir kəlmə də danışmadı. Mən buna çox təəssüf edirəm. Bizim qarşımızda bu cür çıxış etmək bizə hörmətsizlikdən başqa bir şey deyil».

Fəzail Ağamalı hesab edir ki, Milli Məclisin tribunasından Rusiya barədə də o cür çıxış etmək düz deyil. Deputat deyir ki, Gürcüstanın Rusiya ilə problemləri ola bilər. Amma Azərbaycanı bu məsələyə qatmaq düz deyil.

Çıxışının əvvəlində Azərbaycanın inkişafı və onunla strateji müttəfiqlikdən qürur duyduğunu deyən Saakaşvili isə 2008-ci il hadisələrinə də toxunub: «2008-ci ildə xarici qüvvələr Gürcüstanın mövcudluğunu təhlükə altına salanda siz bizimlə bərabər möhkəm dayandınız. Biz hələ Qafqaz Albaniyası dövründən böyük işğalçılara qarşı birlikdə dayanmışıq».

### «ƏLİ VƏ NİNO»NUN SONLUĞUNU TƏZƏDƏN YAZAQ

Mixeil Saakaşvili Milli Məclisdə çıxışını Qurban Səidin «Əli və Nino» əsərinin sonluğundan sitat gətirməklə yekunlaşdırıb. Deyib ki, Əli ilə Nino müxtəlif millətlərdən olsalar da, onları azadlıq sevgisi birləşdirirdi. Və sonda Əli Gəncə ətrafında bolşeviklər tərəfindən öldürülür.

Saakaşvili hesab edir ki, indi Gürcüstan və Azərbaycan bu romanın axırını yenidən yaza və onu xoşbəxt sonluqla bitirə bilərlər...

Gürcüstan prezidenti tribunanı tərk etməsindən əvvəl bir daha Məmməd Əmin Rəsulzadənin məşhur kəlamını Azərbaycan və gürcü dillərində təkrar edib: «Bir kərə yüksələn bayraq, bir daha enməz!».

### GÜRCÜSTAN PREZİDENTİNİN ÇIXIŞINI ALQIŞLAYANLAR

Xatırladaq ki, Gürcüstan prezidentinin Milli Məclisdəki çıxışından narazı qalanlar olsa da, onun nitqini alqışlayanlar, sevgi və heyrətlə qarşılayanlar da çoxdur. Çıxış mətbuatda və sosial şəbəkələrdə hələ də müzakirə edilməkdədir. Müxalif siyasi liderlər, ziyalılar, köşə yazarları, bloggerlər çıxışa öz münasibətlərini açıqlayır və onlar arasında deputat Fəzail Ağamalını Mixeil Saakaşvilinin nitqinə qarşı çıxmağa görə qınayanlar da var.

***İlqar Rəsul***

# Sahiblərinin sorağı Panamadan gələn olimpiya idman kompleksləri

## Dövlətin tikdiyi obyektlər kimi açılan komplekslərin bəziləri niyə dövlətə məxsus deyil?

**Son on ildə təkcə dövlət büdcəsindən olimpiya idman komplekslərinin (OİK) tikintisinə 200 milyon manata yaxın vəsait xərclənib. Ekspertlərsə hesab edir ki, bu investisiyalar ölkənin olimpiya göstəricilərində öz əksini tapmır.**

**OLİMPİYA KOMPLEKSİ VAR, MEDAL YOX**

Hələ komplekslər tikilməmişdən öncə - 2000-ci ildə Azərbaycan olimpiya oyunlarında 2 qızıl, 1 bürünc medal qazanmışdı. İdman şərhçisi Elçin Cəlilov deyir ki, o vaxt yığmada iştirak edənlər də əsasən yerli – Azərbaycanda yetişmiş idmançılar idi:

«Əslində indi də medalları qazananlar ya idman klublarının yetirmələri, ya da legionerlərdir. 8-10 il də gözləyək, bəlkə onda komplekslərin bir nəticəsi oldu».

Ekspertin fikrincə, səbəb həm də hotel, sauna və stadionlardan ibarət olan komplekslərin idmanın kütləvi təbliğinə deyil, özəl biznes məqsədlərinə xidmət etməsidir.

İLHAM ƏLİYEV: **«ADI OLİMPİYA KOMPLEKSİ OLSA DA...»**

Elçin Cəlilovun dediklərini Quba OİK-


İdman şərhçisi Elçin Cəlilov

nin qarşısında bizi qarşılayan şlaqbaum təsdiqləyir. Girişə nəzarət edən mühafizəçi deyir ki, «kompleksin hotelində yer yoxdur, içəri keçmək olmaz».

*- Bəs, kompleksdə idmanla da məşğul ola bilmərik?*

- Yalnız daimi müştərilər istifadə edə bilər.

O, daimi istifadəçilərin kim olduğunu deməsə də, öyrənirik ki, hotel otaqlarında qalanlar idmançılar yox, türk inşaatçılardır. 2004-cü ildə bu kompleks açılanda prezident İlham Əliyev Qubanın turizm mərkəzinə çevriləcəyini bildirib: «Biz ən böyük kompleksi burada yaratdıq. Adı olimpiya idman kompleksi olsa da, əslində, bu, turizm mərkəzidir».

Quba sakinləri də buranı idman mərkəzindən daha çox hotel kimi tanıyırlar. Quba OİK-dən öyrənirik ki, o, Nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədova aid ZQAN Holdinqə məxsusdur. Kompleksin bütün rəhbərlik və sənədləşmə işləri Bakıdan idarə olunur.


Vasif Talıbov, Heydər Əliyev və İlham Əliyev (Arxiv foto)

**İLHAM ƏLİYEVİN XALQA HƏDİYYƏSİ...**

Azərbaycanda OİK-lər 2002-ci ildən işə başlayıb. İlklərdən olan Naxçıvan OİK-in açılışında ovaxtkı prezident Heydər Əliyev deyib: «Bakıda ilk kompleksi Milli Olimpiya Komitəsi, şəxsən İlham Əliyev inşa etdirdi. Hər bir kompleks İlhamın xalqa hədiyyəsidi».

Rəsmi sənədlərdə və hesabatlarda komplekslər İlham Əliyevin idmana qayğısının göstəricisi kimi qiymətləndirilir. Amma araşdırmamız bəzi komplekslərin istifadəsiz, bəzilərininsə təyinatı üzrə fəaliyyət göstərmədiyini üzə çıxarıb.

**FƏRHAD ƏLİYEV DÖVRÜNÜN BAXIMSIZ OİK-LƏRİ**

İstifadəsiz qalan komplekslərdən biri də Lənkərandadır. Masallı, Salyan, Bərdə və Maştağadakı OİK-lər kimi, bu kompleks də "Azpetrol" şirkətinin vəsaiti ilə tikilib. Amma şirkətin özünün internet səhifəsində bu haqda bir kəlmə də yoxdur. İdmana yatırım sabiq İqtisadi İnkişaf naziri Fərhad Əliyevin qardaşı Rafiq Əliyevin şirkətə sahibliyi dövrünə təsadüf edir.


Şamaxı OİK

Lənkəran OİK-in direktoru Amil Ağayev deyir ki, əldə etdikləri vəsait heç aylıq əməkhaqlarına çatmır: «Şərait olmadığı üçün gələn də yoxdur. Kompleksin inşasında ciddi problemlər yaranıb. Biz dəfələrlə inşaatçını - «Flaminqo» şirkətini axtarsaq da, bu şirkətin izini tapa bilmədik. Deyirlər, bizi Gənclər və İdman Nazirliyinin balansına verəcəklər. Qalmışıq sahibsiz».

«Flaminqo» şirkətinin adına internetdə yalnız bircə yerdə rast gəldik. 2006-cı ildə çəkilən «Adam ol» filminin sponsoru qismində.

Salyan OİK isə düşdüyü vəziyyətdən çıxış yolu tapıb. Bu kompleksə "Nurgün Motors" şirkəti sponsorluq edir. Salyanlılar isə buranı idman məkanından daha çox, avto sərgilər keçirilən yer kimi tanıyır.

Bəzi kompleksləri kimin, hansı vəsaitlə və hansı məqsədlə tikdirdiyi isə, ümumiyyətlə, məlum deyil. Belə sirli komplekslərdən biri Şamaxıdadır. 2005-ci ildə istifadəyə verilmiş Şamaxı OİK-in nə inşaatçısı, nə sahibi bəllidir. Üstəlik, kompleksin özünü 2010-cu ildə «standartlara» cavab vermədiyi üçün söküblər. İndi həmin ərazidə yenidənqurma işləri və «Olimpik» hotel tikilir.

**«BANKİRLƏR ÜÇÜN OLİMPİYA KOMPLEKSİ»**

Şəki OİK-in işləri isə, yerli sakinlərin dediklərinə görə, elə də pis getmir. Özü də prezident bu kompleksin lentini düz 2 dəfə kəsib – 2002-ci ildə inşaat başa çatanda və 2011-ci ildə əsaslı təmirdən sonra. Karate ilə məşğul olan 11 yaşlı Samir Şəki OİK-də bircə dəfə olub. Ayı 15 manata hər gün təmirsiz və şəraitsiz idman məktəblərinin birində məşq edən Samir deyir ki, prezident Şəkiyə gələndə onları da kompleksə aparıblar.

***(davamı 10-cu səhifədə)***

# Sahiblərinin sorağı Panamadan gələn olimpiya idman kompleksləri

*(əvvəli 9-cu səhifədə)*

Kompleksin yaxınlığında müştəri gözləyən taksi sürücülərindən və ara-sıra burdan keçən sakinlərdənsə eşidirik ki: «Bu kompleksdən daha çox bankirlər istifadə edir. Ora bizlik deyil...»

Şəki OİK-dəsə işçilərdən başqa heç kimi görmədik. Pezidentin iştirakı ilə təntənəli açılışdan cəmi bir ay sonra üzgüçülük hovuzunda qızğın təmir işləri gedirdi. Baş məşqçi Vüqar Həsənov izah edir ki, bu, tamamlama işləridir. Kompleksin tikintisinə və yenidən əsaslı təmirinə ayrılan vəsait haqda məlumatı olmasa da, baş məşqçi bu işlərin Beynəlxalq Bankdan götürülmüş güzəştli kredit hesabına aparıldığını söylədi.

**4 KOMPLEKSİN SORAĞI PANAMA ADALARINDAN GƏLDİ**

Şəki OİK "General Construction" MMC-nin balansındadır. Qazax, Qusar və Zaqatala OİK-lərini də bu şirkət öz vəsaitilə inşa edib. "General Construction" 2001-ci ildə Panamanın «Oceanstream» şirkəti tərəfindən təsis olunub. Şirkət azərbaycanlı iş adamı Xəqani Bəşirova məxsusdur. Bir müddət öncə AzadlıqRadiosu Xəqani Bəşirovun Beynəlxalq Bankdan azı 185 milyon manat kredit götürüb qaytarmadığını üzə çıxarıb. Araşdırmada Xəqani Bəşirovun bu kreditləri Beynəlxalq Bankdan təkrar-təkrar, müxtəlif adlar altında qeydiyyatdan keçirdiyi təşkilatlar vasitəsilə aldığı göstərilir.

Bankdan və həmin şirkətdən OİK-lərin tikintisinə ayrılan kreditin həcmini açıqlamırlar. Yalnız "General Construction"un tikdiyi Qusar OİK «City Line» MMC-yə 11 milyon 758 min manata satdığını öyrənə bilirik. Kompleksdən həm "General Construction"la bağlı, həm də "City Line"la bağlı suallarımıza yalnız birinci şirkətin baş direktoru Camal Həsənovun cavab verə biləcəyi bildirildi. Belə çıxır ki, eyni adam kompleksi özü özünə satıb.

**SABİRABADDA BİR, GÖYÇAYDA ON MİLYONA BAŞA GƏLƏN KOMPLEKS**

Gənclər və İdman Nazirliyinin iqtisadiyyat şöbəsinin müdir müavini Rüfət Həsənov deyir ki, komplekslərdən 16-nı Gənclər və İdman Nazirliyi, 2-ni Qaçqınlarla İş üzrə Dövlət Komitəsi, 3-nü Milli Olimpiya Komitəsi, 12-ni isə müxtəlif özəl şirkətlər öz vəsaitləri hesabına tikib.

Dövlət büdcəsi hesabına tikilən OİK-lərə 200 milyon manata yaxın vəsait xərclənib. Dövlət büdcəsindən maliyyələşsə də, komplekslərin tikintisinə xərclənən vəsait arasındakı fərq aydın deyil.

Məsələn, Sabirabadın Qalağayın kəndində tikilən komplekslə Göyçay kompleksinin tamaşaçı tutumu və infrastrukturu arasında elə böyük fərq olmasa da, xərclənən vəsait arasında on dəfə fərq var.

**HƏM DÖVLƏTİNDİR, HƏM DƏ YOX**

Dövlət vəsaiti hesabına tikilən komplekslər də MMC-lərin istifadəsindədir. Nazirlik rəsmisi Rüfət Həsənov bildirir ki, prezidentin «Dövlət əmlakının qorunub saxlanması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi barədə» 6 iyun 2007-ci il tarixli fərmanı ilə bu komplekslər Əmlak Məsələləri Dövlət Komitəsinin təsis etdiyi MMC-lərin istifadəsinə verilib.

İqtisadçı Azər Mehtiyevin sözlərinə görə, bu MMC-lər təsərrüfat hesablı müəssisələr sayıldığından, onların fəaliyyətindən əldə olunan bütün mənfəət komplekslərin inkişafına yatırılmalı, yaxud dövlətə qaytarılmalıdır.

Dövlətin tikdiyi bir neçə kompleksin istifadəçiləri ilə söhbətdən isə məlum oldu ki, ödəniş zamanı onlara qəbz verilmir. İqtisadçı-ekspert Zöhrab İsmayılın fikrincə, belə müəssisələr ya sadələşdirilmiş vergi ödəyicisi statusunu itirməmək üçün, ya da mənfəətlərini gizlətmək üçün dövriyyəni rəsmiləşdirməməyə çalışır: «İllik gəliri 150 min manatı keçməyən hüquqi şəxslər sadələşdirilmiş vergi ödəməlidir. Yəni Bakı və Abşeron üçün 4 faiz, regionlarda yerləşənlər isə illik gəlirindən 2 faiz ödəyirlər. Komplekslər qəbz verməməklə illik gəlirlərini gizlədirlər, vergidən yayınırlar. Amma, təbii, bunu bütün OİK-lərə şamil etmək olmaz. Elə komplekslər var ki, maket kimi qurulub, ayda 5-10 nəfər istifadə edə, ya etməyə».



Azad Rəhimov

**KOMPLEKSLƏRDƏ XİDMƏT ÖDƏNİŞLİDİR?**

İstər mərkəzdən kənarda yerləşməsinə, istərsə də ödənişli fəaliyyət göstərməsinə görə özəl komplekslərlə dövlət komplekslərində vəziyyət oxşardır. Nazirliyin rəsmisi Rüfət Həsənov deyir ki, dövlət kompleksləri təsərrüfat hesabı ilə fəaliyyət göstərdiyinə görə ödənişlidir:

«Tarif haqlarını komplekslərin direktorları müəyyənləşdirir. Əldə olunan vəsait isə əməkhaqları, kommunal və digər xərclərin ödənilməsinə yönəlir».

2011-ci ilin fevralında isə nazir Azad Rəhimov korrupsiya ilə mübarizəyə həsr olunmuş müşavirədə çıxışında deyib ki, OİK-lərdə göstərilən xidmətlər ödənişsiz olmalıdır: «İndiyə kimi bəzi komplekslərdə xidmətlər ödənişli idi. Həmin komplekslərə ciddi xəbərdarlıq olunub».

Rüfət Həsənov isə bildirir ki, nazir bu çıxışında dövlət vəsaiti hesabına inşa olunan komplekslərdə yalnız olimpiya oyunları üzrə xidmətləri nəzərdə tutub.

Dövlətin tikdiyi OİK-lərə ayrılan vəsait (manatla)




***Nüşabə Fətullayeva***

# Azərbaycan və Ermənistan ordularının daha bir müqayisəsi

**Britaniyada yerləşən Beynəlxalq Strateji Araşdırmalar İnstitutu «Hərbi Balans 2012» adlı növbəti hesabatını yayıb. Sənəddə qeyd edilir ki, son illər ilk dəfədir ki, Asiya ölkələrinin keçənilki müdafiə xərcləri Avropa dövlətlərini keçir. Sənədə görə, Asiya ölkələri keçən il hərbi sahəyə xərclərini 3.15 faiz artırıblar. Çin, Yaponiya, Hindistan, Cənubi Koreya və Avstraliyanın hərbi xərcləri ümumilikdə regionun bütün müdafiə xərclərinin 80 faizini təşkil edib.**

171 ölkədəki vəziyyətdən bəhs edən hesabatda qeyd edilir ki, Azərbaycan silahlı qüvvələri sovet modelindən çıxmaqda uğurlar əldə edib. Amma avadanlıqlarla təchizat sarıdan hələ qeyri-müəyyənlik var: "S-300 sistemləri də alınıb, amma təhlilçilər əmindirlər ki, belə avadanlıqlardan istifadə etmək sarıdan müəyyən problemlər hələ qalır. Ordu çağırışçılar hesabına formalaşdırılır. Müxtəlif birliklərin döyüş hazırlıqları aşağı olaraq qalır", – deyə hesabatda yazılır.

Ehtiyatda olan polkovnik, keçmiş briqada komandiri İldırım Məmmədov hesabatda kadr çatışmazlığı barədə səslənən fikirlərlə qismən razı olduğunu deyir. Onun fikrincə, hazırda dünyanın əksər ordularında bu problem var, Azərbaycan da aldığı yeni silahların istifadəsini elə onu satan ölkələrdən öyrənir: "Mən özüm bu yaxınlarda şahidi oldum ki, Rusiyada çağırışçılar vurma cədvəlini bilmirdilər. Yəni Ermənistanda da, Gürcüstanda da, lap elə Rusiyada da bu problem var. Azərbaycan da aldığı yeni silahlardan istifadəni öyrənmək üçün təlimçilərə də pul ödəyir".




***«Hərbi Balans 2012» hesabatında Azərbaycan və Ermənistan orduları haqqında verilən məlumatın xülasəsini AzadliqRadiosu.az saytından oxumaq olar.***

***Natiq Zeynalov***

# Xristian miqrantlar müsəlmanlardan daha çox imiş

*Qərb ölkələrində miqrasiya ilə bağlı debatlar açılanda nədənsə birinci yada düşən müsəlman miqrantlar olur. Halbuki indi dünyada xristian miqrantların sayı müsəlman miqranlardan daha çoxdur. Bu faktlar Pew Araşdırma Mərkəzinin Din və İcrimai Həyat Forumunun son tədqiqatında əksini tapıb. Tədqiqat 2010-cu ildə 1 ildən artıq başqa ölkədə məskən salmış insanları əhatə edir. Qurum dünyada dinlərarası münasibətləri daha dərindən anlamaq üçün araşdırmalar aparır. Tədqiqatın nəticələrinə görə, öz Vətənini tərk edərək başqa ölkəyə üz tutmuş 214 milyon insanın 106 milyonu, yəni təxminən yarısı xristiandır.*

Dünya boyu miqrantların yalnız 27 faizi müsəlmandır.

Miqrantlar arasında 3,6 milyon yəhudi də var. Bu isə dünyadakı yəhudilərin təxminən 25 faizidir. Bu, bir dinə mənsub insanlar arasında ən böyük miqrasiya faizidir. Son illərdə Avropa Birliyi ölkələrində millətçi və dinçi qruplar müsəlman miqrantlara qarşı kampaniyalar aparırılar, bunu seçkilərdə şüara çevirirlər. Halbuki Avropa Birliyinə gəlmiş 47 milyon nəfər miqrantın 56 faizi xristiandır.

Müsəlman miqrantların sayı bundan 2 dəfə azdır. Araşdırma zamanı miqrasiyanın səbəblərinə dair ekspertlər arasında sorğu da keçirilib. Onların çoxu bu fikirdədir ki, insanların öz vətənlərini tərk edib başqa dövlətlərə üz tutmasının əsas səbəbi daha yaxşı iş və maaş arzusudur. Xristianların ən çox üz tutduqları ölkə ABŞ-dır. Bu ölkəyə getmiş miqrantların 74 faizi xristiandır - yəni 32 milyon nəfər.

Amerikada doğulmayan, amma hazırda Amerikada yaşayan 43 milyon nəfərin 3-də 2-si Latın Amerikası ölkələrindəndir. Təkcə Meksikadan ABŞ-a 12 milyon miqrant gedib. Bura həm qanuni miqrantlar, həm də iznsiz yaşayanlar aiddir. Amerika həm də buddistlərin ən çox üz tutduğu ölkədir. Onların çoxu Vyetnamdan gəlir. Amerikaya üz tutan miqrantların yalnız 5 faizi müsəlmandır.

***Rövşən Qənbərov***

# Azadlıq FM davam edir...




İndi hər həftənin cümə günü 14:00-15:00 arasında Facebook məkanında baş verən maraqlı olayların müzakirəsinə qa qatıla bilərsiniz. Facebookda xüsusi fəallığı ilə fərqlənən şəxslər verilişə dəvət edilir. Veriliş eyni vaxtda AzadlıqRadiosunun Facebook səhifəsində də yayımlanır ki, Facebook istifadəçiləri canlı olaraq şərhlər yaza bilsinlər. Azadlıq FM-in arxiv səhifəsi də var.

# Tarixlə və gələcəklə döyüşənlər



M.Saakaşvili və İ.Əliyev

**Gürcüstan prezidenti M.Saakaşvilinin Milli Məclisdəki maraqlı çıxışı heç də birmənalı qarşılanmadı. Çıxış gəncləri riqqətə gətirsə də, hakimiyyətə yaxın bəzi millət vəkillərinin narazılığı ilə qarşılandı. Onlar Saakaşvilini Qarabağla bağlı müəyyən mövqe bildirməməkdə, parlamentin tribunasından Rusiyanın əleyhinə fikirlər səsləndirmək üçün istifadə etməkdə qınadılar.**

Deputatların narahatlığını başa düşmək mümkündür. Ölkə siyasətində bu son 20 ildə bir siyasətçi obrazı, qəlibi formalaşıb. Bu obrazın müəllifi H.Əliyev olub. Bu obraz siyasətçidən ancaq ümumi ifadələrlə kifayətlənməyi, öz fikirlərini, öz mövqeyini gizlətməyi, mübahisə və qıcıq yarada bilən ifadələri işlətməməyi tələb edir. Bir sözlə, balanslaşdırılmış siyasət bu ölkədə təkcə diplomatik taktika deyil, həm də siyasətçinin davranış və ifadə tərzidir. Çünki balansın məntiqi hətta siyasətçilərin leksikonuna belə sirayət edib. Təbii, o baxımdan M.Saakaşvili standart azərbaycanlı siyasətçi tipi ilə uzlaşmayan bir liderdir.

Amma gürcü lideri həqiqətləri deməyə can atır. O, heç də Rusiya ilə mövcud münasibətlərin qənaətbəxş olmadığını inkar etmir. Lakin bu münasibətlərin yaranmasının təqsiri birmənalı şəkildə Rusiyanın payına düşür. Gürcüstanı təcrid etmək istəyini, Saakaşvili ilə heç bir halda münasibət qurmayacağını məhz Rusiya liderləri bəyan edirlər, özü də açıq tekstlə. M.Saakaşvili yaxın günlərdə Rusiya vətəndaşları üçün birtərəfli qaydada viza rejiminin aradan qaldırılması haqda göstəriş verdi. Lakin Rusiyadan bununla bağlı hər hansı reaksiya sezilmədi. M.Saakaşvili Azərbaycan parlamentində Rusiyanı elə də ciddi tənqid etməmişdi, SSRİ-ni bərpa etmək cəhdlərinin mənasız olduğunu demişdi.



Vladimir Putin, 23 fevral 2012

**TARİX RƏSMİ BAKININ GÖZÜ İLƏ**

Rəsmi Bakının özünün «istiqlaliyyət konsepsiyası» var. Bu konsepsiyada o təlqin edilir ki, 1918-20-ci illərdə ciddi bir hadisə baş verməyib. Əksinə, o vaxtın liderləri Azərbaycan torpaqlarında Ermənistan dövlətinin qurulması kimi bir işə razılıq verməklə milli maraqlara böyük ziyan vurmuş və nəhayət, müstəqilliyi qoruyub saxlaya bilməmişdilər. Rəsmi «ustanovka»lara görə də Azərbaycan dövlətçiliyinin bərpası H.Əliyevin, onun yaxınlarının, bir də ki, o dövrdə gedən «obyektiv proseslər»in nəticəsidir. Bir sözlə, dövlətçiliyin bir banisi var – o da H.Əliyevdir.

Ona görə də diplomatik protokola görə, ölkəyə gələn bütün qonaqlar səfərlərini H.Əliyevin məzarını ziyarət etməklə, ondan sitatlar gətirməklə və onu xatırlamaqla başlayırlar. Saakaşvili bu ssenarinin bəzi bəndlərini pozdu. O, Milli Məclisdə M.Ə.Rəsulzadədən sitat gətirdi, özü də bunu Azərbaycanca dedi. Əslində isə o, H.Əliyevi xatırlamalı, onun gürcü və Azərbaycan xalqları üçün nə qədər böyük işlər gördüyünü qeyd etməliydi. M.Saakaşvili «Bir kərə yüksələn bayraq bir daha enməz!» (M.Ə.Rəsulzadə) demək əvəzinə məhz «Müstəqilliyimiz əbədidir, dönməzdir və sarsılmazdır!» (H.Əliyev) deməli idi. Belə desəydi, o, daha çox alqışlanacaqdı. Bir vaxt Azərbaycandan Gürcüstana bəzi jurnalistlər E.Şevardnadzedən H.Əliyevin və M.Saakaşvilidən İ.Əliyevin nə qədər «böyük siyasətçi» olduğunu soruşmaq üçün yollanırdılar. M.Saakaşvili bu ənənəni bir az pozdu, Azərbaycanın lideri haqda təriflər söyləsə, ölkənin analoqu olmayan inkişafından heyrətə gəlsə də, Milli Məclisdə bu hakimiyyətin tarixi rəqibindən – M.Ə.Rəsulzadədən sitat gətirməklə, necə deyərlər, işləri azacıq korladı. Lakin rusların bir məsəli var: «Xoşbəxtlik olmazdı, bədbəxtlik kömək etməsəydi». Saakaşvili özü də bilmədən bir günün içində gənclərin əsl kumirinə çevrildi. Əsası da budur. Bəzilərinin narazılığına və təlaşına gəldikdə isə, o, ötəridir, çünki insanlar bu günlə yaşasa da, həmişə tarixi anır, gələcək haqda düşünür, çünki bu günün ömrü cəmi 24 saatdır...

***Hüseynbala Səlimov, müstəqil analitik***




**"Qaynar Xətt"**ə yaz, hüquqşünaslardan məsləhət al. Suallara hər həftənin şənbə saat **18:05-də** hüquqşünaslar canlı efirdə cavab verəcəklər. Həmçinin cavablar sayta göndərilmiş suallara əlavə olunacaq. Suallarını, problemlərini yaz.

**"Online vəkil"**lə başqa əlaqə vasitələri:

**Telefon:** 436 77 41 (Zənglər avtomat tərəfindən qəbul olunur. Ona görə sözünü bildirəndən sonra telefon nömrənizi də deyin ki, geri zəng edib əlaqə saxlaya bilək).

**Elektron poçt:** cavadovae@bureau-mail.rferl.org

**Canlı efir zamanı SMS:** (+99450) 7441017

# Alim Qasımovun səsində problem yaranıb



**Azərbaycanın xalq artisti Alim Qasımov martın 8-də AzadlıqRadiosunun "Pen klub" proqramının qonağı oldu. Amma söhbətə ABŞ səfərindən körpü saldıq. O bir ayağını qatlayıb stulda əyləşən kimi söhbətə başladıq.**

*- 2000-ci ildə konsertdə "Daş qəlbləri neylərdin, İlahi" oxudunuz. Zal da sizi alqışladı...*

- Rəhmətlik Sabirin sözləridir. O da hikmətamiz sözlərdir. Ya da:

*Əzizim Ərzuruma,*
*Yol gedir Ərzuruma.*
*Dəvəsi ölmüş ərəbik*
*Dözərik hər cür zuluma.*

Bir bayatı da vardı: "Sərkərdə igid olsa, heç verməz ordu bada". Ya da siyasi mövzulu qəzəllər var. İnsanlar içlərindəki narazılıqları deyə bilməyib, onu sənətkar deyəndə daha maraqlı alınır. Amma, əlbəttə ki, sənəti siyasətə çox qatmaq olmaz. Siyasətə qarışanda gərək siyasətlə oxuyasan, siyasətlə də aradan gedəsən.

**"SƏSİMİN ƏZƏLƏLƏRİ YORULUB. ALMANİYADA DEDİLƏR Kİ, DÜZƏLMƏK ŞANSI YOXDUR"**

*- Səsiniz xırıltılıdır. Səsinizlə bağlı problem yoxdur bu aralar?*

- Bir ilə yaxındır ki, səsimin dalınca düşmüşəm. Səsimin əzələləri yorulub. Almaniyaya göndərmişdi məni Heydər Əliyev Fondu, Mehriban xanım. Çox yeri gəzmişdim, biri dedi ki, ciyərindir, biri dedi ki, boğazındır... Almaniyadasa dəqiq diaqnoz qoydular ki, səs əzələlərin yorulub, düzəlmək şansı da yoxdur. Dedim şükür sənə, İlahi... Amma səs məşğələləri, filan edirəm. Mənə elə gəlir ki, Allah üzümə gülüb həmin səsi qaytaracaq mənə.

*- Nədən hiss edirsiz?*

- Yavaş-yavaş düzəlməyini hiss edirəm. Əvvəl namaz qılanda da görürdüm ki, səsim sözümə baxmır.

- **"OTURMUŞUQ, OTDU VERİBLƏR, DADINA BAXMIŞIQ"**
- **"FƏRQANƏNİN BAŞINI BAĞLAMASI ONA ÇOX MANE OLUR"**
- **QƏDİR RÜSTƏMOVUN "QIRX" MƏRASİMİNDƏ NİYƏ OXUDU?**
- **"ELƏ TAMAŞAÇI VAR DEYİR Kİ, SƏNİ ÖLDÜRMƏK İSTƏYİRƏM"**

**AzadliqRadiosu.az saytında söhbəti tam dinləmək olar.**

***Şahnaz Bəylərqızı***

# Sietse Bakker: ««Eurovision 2012»nin biletləri baha deyil»

*«Eurovision 2012» mahnı müsabiqəsinə biletlərin qiymətini yarışmanı keçirən yayımçı - İctimai Televiziya müəyyənləşdirir. Avropa Yayım Birliyinin tələbi odur ki, qiymətlər müxtəlif səviyyədə - biletlərin azı 1/3-i beynəlxalq bazar, 2/3-si isə yerli bilet alıcıları üçün çatımlı olsun». Bunu «Eurovision 2012»nin təşkilati rəhbəri Sietse Bakker AzadlıqRadiosunun «Eurovision» biletlərinin qiyməti müəyyənləşdirilərkən yerli əhalinin maaşının nəzərə alınıb-alınmamasına dair sorğusuna cavabında bildirib.*

| | Yarımfinallar + Əsas Məşq | | Final + Əsas Məşq | | Hər şou üçün bilet sayı |
|---|---|---|---|---|---|
| | Ucuz | Baha | Ucuz | Baha | |
| Moskva - 2009 | € 18 | € 445 | € 22 | € 667 | 20000 |
| Oslo - 2010 | € 38 | € 75 | € 100 | € 200 | 18000 |
| Düsseldorf - 2011 | € 29 | € 119 | € 89 | € 189 | 32000 |
| Bakı - 2012 | € 30 | € 150 | € 60 | € 240 | 17000 |
| Biletlərin orta qiyməti | € 29 | € 197 | € 68 | € 324 | |

S.Bakker ötən illərin mahnı müsabiqələri ilə Bakı-2012-də biletlərin qiymətini də müqayisə edir:

S.Bakker bildirir ki, «Eurovision» mahnı müsabiqəsinə gələn hər kəs 2.5 saatlıq yarımfinal və 3.5 saatlıq final şoularında olur: «Bu qiymətlər müxtəlif maliyyə imkanı olan şəxslərə «Eurovision» müsabiqəsinin canlı şoularında, yaxud məşqlərində iştirak üçün şərait yaradır».

***Arifə Kazımova***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Həmid Herisçi: **"AYO ilə bizim yollarımız ayrılıb"**



Bəhram Bağırzadə: **«İki-üç adamı içəri bassan, bəs edər»**



Günel Mövlud: **Mənə əlcəyini bağışlayan o oğlan...**



**"Nobel" mükafatlı yazarın "itmiş" romanı çap edildi**



**iPad-3-ün hansı üstünlükləri var?**

# "Fahişəliyi din pərdəsi ilə ört-basdır edirlər"



Arxiv-foto

*Rəsmi nikah olmadan, yalnız dini kəbinlə İrana ərə gedən azərbaycanlı qızlar hansı hüquqlara malik olurlar? İslam ailədə tərəflərə bərabər hüquq verirsə, niyə azərbaycanlı qızlar boşanıb geri qayıdanda heç nəsiz qalırlar? Bu mövzu "İslam və demokratiya" proqramında müzakirəyə çıxarılıb. Müstəqil hüquqşünas Xalisə Şahverdi deyir ki, nəinki İran, ümumiyyətlə, istənilən xarici ölkənin vətəndaşı ilə ailə quran qadınlar rəsmi nikaha girməlidir: "Bu, onlara müəyyən hüquqlar verir. Rəsmi nikaha girməyən cütlüklər ayrılanda, əmlakın bölünməsində problem yaranır. İstər Azərbaycan, istər İran tipli ölkələrdə daşınmaz əmlak, böyük vəsaitlər adətən kişinin adına rəsmiləşdirilir. Belə olanda, ayrılanda qadına heç nə çatmır".*

**RƏSMİ NİKAH OLMAYANDA KİŞİNİ CƏZALANDIRMAQ ÇƏTİNDİR**

Hüquqşünas deyir ki, xaricə ərə gedən azərbaycanlı qızlar bir çox problemlə üzləşir. Məsələn, onları evlənmək adıyla aparıb cinsi istismara məruz qoyurlar, yaxud əməyini istismar edirlər: "İran kişiləri bura gələndə bizim qadınlarla faktiki nikahda yaşayırlar, sonra da onları atır, uşaqları qoyub gedirlər. Bəzən qadınları cinsi yolla keçən xəstəliklərə yoluxdururlar. Bunlarla bağlı tədbir görmək üçün ölkə daxilində tənzimləmə mexanizmi var. Amma o insanları tapıb cəzalandırmaq problem olur".

**99 İLLİK SİĞƏ DƏ VAR, BIR SAATLIQ DA**

Uzun müddət İranda yaşayan Nazlı Güneyli deyir ki, bu ölkədə rəsmi nikahda olan qadınların da hüquqları güclü qorunmur. Onun sözlərinə görə, İranda iki növ nikah var: "Dövlət nikahı və siğə. Siğə sırf dini nikahdır. Bunu istənilən molla edə bilər, ya da tərəflərin özləri oxuya bilərlər. Siğələr 99 illik, aylıq və hətta saatlıq ola bilir. Mən hesab edirəm ki, saatlıq siğə elə fahişəliyin leqallaşdırılması deməkdir. İslam ölkəsi olduğuna görə bu ölkədə fahişəliyi din pərdəsi ilə ört-basdır edirlər".

**KƏBİN MƏBLƏĞİNİ 89 İLLİK KREDİTLƏ VERİBLƏR**

Nazlı Güneyli deyir ki, İranda heç rəsmi nikah da qadının gələcəyinə tam zəmanət vermir. Çünki nikah zamanı qoyulan kəbin məbləği çox hallarda ödənilməmiş qalır: "Bu, müəyyən qədər sikkə, qızıl, pul, əmlak ola bilər. Bu məbləği kişi evlənəndə qadına ödəməlidir. Amma əksər hallarda bu, boşanana qədər kağız üzərində qalır. Boşananda da məbləğ böyük olduğundan, kişinin gəlirinə uyğun olaraq ona kredit müddəti verilir. Bir dəfə məhkəmə belə bir qərar vermişdi ki, bir xanımın kəbin haqqı 89 illik kreditlə veriləcək".




Xalisə Şahverdi "qarımış qız" stereotipindən uzaqlaşmağı məsləhət görür

**UŞAĞIN ÜSTÜNDƏ ANANIN HAQQI ƏMİDƏN DƏ AZDIR**

İslam dini qadınlarla kişilərə bərabər hüquq tanısa da, Nazlı Güneyli praktikada başqa halların mövcud olduğunu deyir. Onun sözlərinə görə, bölgələrdə qadınların ailədəki hüquqları kobud surətdə pozulur:

"Bir qadın ərinin icazəsi olmadan işə girə bilməz, xaricə gedə bilməz, boşana bilməz, uşağa sahiblik edə bilməz. Əgər kişi ölsə, onda uşaq əvvəlcə qayınataya, qayına, onlar olmasa, sonra anaya çatar. Yəni uşağın üstündə ananın haqqı babadan və əmidən azdır".

**<u>HACI SƏDİ AXUNDZADƏ:</u> "RƏSMİ NİKAH OLMASA, KƏBİN KƏSİLMİR"**

Qafqaz Müsəlmanları İdarəsinin cənub bölgəsinin nümayəndəsi Hacı Sədi Axundzadə isə deyir ki, idarənin tapşırığına əsasən, axundlar rəsmi nikah olmadığı halda, kəbin kəsə bilməzlər.



Rusiyada evlənən qadınlar

# İslam cinsi azlıqların hüququnu tanımır

**İslam Əməkdaşlıq Təşkilatının üzvləri BMT-də insan haqları ilə bağlı növbəti müzakirələrin mövzusuna etirazlarını bildiriblər. Çünki bu dəfə qurumda lesbiyanlar, gey, bi və transseksuallara qarşı ayrı-seçkilik halları müzakirəyə çıxarılıbmış. BMT-nin insan haqları üzrə ali komissarı Navi Pillay iclas zamanı BMT-yə üzv dövlətlərə müraciət edib və insanları seksual zəmində diskriminasiyaya məruz qoyan qanunları ləğv etməyə çağırıb. Pillay bu cür insanların homofobiyadan müdafiə olunmalarını istəyib.**

Lakin Pakistanın BMT-dəki nümayəndəsi Muhammad Saeed Sarwar gündəliyə seksual orientasiya anlayışının çıxarılmasını pisləyib. İslam Əməkdaşlıq Təşkilatının adından danışan Sarwar bir qrup dövlətin bu cəhdlərini kəskin qınayıb: "Biz ona görə etiraz edirik ki, "seksual orientasiya" kimi qeyri-müəyyən bir anlayışı bura gətirmək istəyirlər. Bu, çox mübahisəli bir termindir və yanlışlığa səbəb ola bilər. Həm də bu anlayış hüquqi baxımdan təsbit olunmayıb və beynəlxalq hüquqda yer almayıb".

Muhammad Saeed Sarwar onu da bildirib ki, beynəlxalq ictimaiyyət yalnız İnsan Haqları üzrə Bəyannamədə yer alan və bu sahədəki beynəlxalq sənədlərə salınan haqları tanımalıdır.

BMT-yə üzv olan 192 ölkədən 76-da cinsi azlıqların intim münasibətləri cinayət hesab olunur.

# Rusiya «Eurovision»a nənələri göndərir



«Buranovskiye babuşki» qrupu

Bakıda keçiriləcək «Eurovision-2012» mahnı yarışmasında Rusiyanı «Buranovskiye babushki» («Бурановские бабушки») qrupu təmsil edəcək. «Party For Everybody» mahnısı ilə çıxış edən qrup digər 24 namizəd arasından seçilib. Folklor mahnılarla çıxış edən «nənələr» qrupu Udmurtiyanın Бураново kəndindəndir. Qrup udmurt dilində müxtəlif hit mahnılar ifa edir.

«Eurovision-2012» mayın 22-dən 26-na kimi Bakıda keçiriləcək.

**Nənələrin ifasına aid videoya AzadliqRadiosu.az saytında baxmaq olar.**

# 20 ən varlı adam bir günə 11 milyard itirdi



Lakshmi Mittal

Bir gündə dünyanın ən varlı 20 adamı 11 milyard dollar itirib. Bunu Bloomberg hesablayıb. Amerikalı maliyyəçi Buffet 407 milyon dollar itirib. Onun var-dövləti 44 milyarda düşüb.Dünyanın ən böyük polad şirkətinin sədri Lakshmi Mittal bir gündə 918 milyon itirib. Varlıların belə "kasıblamağına" səbəb birjalarda 3-cü gündür ki, davam edən enişdir. Buna da öz növbəsində səbəb Avropa iqtisadiyyatının son rübdə 0,3 faiz azalması haqda statistik məlumat və Yunanıstanın borc problemi ətrafında yaranan vəziyyətdir.

Nəticədə martın 6-da ABŞ-ın S&P500 indeksi 1,5 faiz düşüb. Səhmlərin belə enişində Avropanın iki satış maqnatı Bernard Arnault və Amancio Ortega hərəyə 1,2 milyard dollar itiriblər. Moet, Hennessy, Lois Vuitton kimi lüks brendlərin daxil olduğu dünyanın ən böyük lüks mallar şirkətinin sahibi olan Arnaultun var-dövləti 41 milyarda düşüb. Dünyanın ən böyük paltar satışı şirkətinin sahibi olan Orteganın isə hazırda 37 milyardı var.

Ancaq birjalarda indiki enişə səhm almaqda əlverişli məqam kimi baxanlar da var.

İnvestisiya strateqi Jeffrey Sault Bloombergə deyib ki, "Buffetin narahatlığına səbəb yoxdur. İndi almaq vaxtıdır. Çünki dünya tənəzzülə getmir".

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Şəffaflıq / Overtime |
| 9:00 | İz / Şəffaflıq / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 11:00 | Xəbərlər |
| 11:05 | Qərb musiqisi |
| 12:00 | Xəbərlər |
| 12:05 | Qafqaz Qovşağı / Qaynar Xətt / Can Bakı / Iz / Şəffaflıq / 14-24 / Şəffaflıq / Azadlıq Bölgələrdə |
| 13:00 | Xəbərlər |
| 13:05 | Qərb musiqisi |
| 14:00 | Xəbərlər |
| 14:05 | Overtime / Kontekst / Qaynar Xətt / Can Bakı / Pen club / Overtime / Iz / Şəffaflıq |
| 15:00 | Xəbərlər |
| 15:05 | Qərb musiqisi / Qaynar Xətt / Can Bakı |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər |
| 16:05 | Qərb musiqisi / İşdən sonra |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Pen Klub |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Azadlıq Bölgələrdə / Şəffaflıq / Qaynar Xətt / İslam və Demokratiya / 14-24 / İz |
| 20:30 | Amerikanın Səsi / Qafqaz Qovşağı / 14-24 |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Şəffaflıq |
| 23:00 | Xəbərlər |
| 23:05 | Overtime / İşdən sonra / AzadlıqFM / Overtime |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## Yar, qoşadır eyvanımız...



***05.03.2012. Göndərdi: Azəri Elli***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## necə dinləməli...

24 saat

**Mobil telefonda canlı:**

İndi 3G, GPRS və ya Wi Fi-la radiomuzu canlı dinləmək olur... Ətraflı: **AzadliqRadiosu.az**-da




**Video və Fotolar**




**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

**Bizimlə əlaqə:**

**E-mail:** efir@AzadliqRadiosu.az


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Çap Evi" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tbilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz